Azərbaycan, № 33.- S.8.

14 fevral 2024-cü il

# Qərb Ermənistanı revanşizmə təhrik edir

**"Şərti sərhəddə Azərbaycan əsgərinin Ermənistan silahlı qüvvələrinin snayperi ilə yaralanması bir daha nümayiş etdirdi ki, İrəvan Bakı ilə sülh müqaviləsi bağlamaq niyyətində deyil. Ermənistan həmişəki kimi təcavüzkar və işğalçı təfəkkürdə qalmaqda davam edir. Vətən müharibəsindən ötən müddət ərzində Azərbaycanla sülh müqaviləsi imzalamağı yubadan Ermənistan guya vəziyyətin dəyişəcəyinə ümid edir. Havadarlarının saxta vədlərinə aldanaraq, Azərbaycan torpaqlarını yenidən işğal etmək üçün bəhanə gəzir. Baş vermiş hadisə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına ciddi zərbədir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, Ermənistanın və onu dəstəkləyənlərin niyyəti regionda yeni münaqişə ocağı yaratmaqdır: "Avropa İttifaqının öz "mülki" missiyasını Ermənistan ərazisinə göndərməkdə məqsədi heç də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına töhfə vermək deyil. Əksinə, Avropa Azərbaycanın iradəsi ilə başladılmış sülh gündəliyini dayandırmaq üçün əlindən gələni edir. Brüssel formatı da əsasən bu məqsədə yönəldilib. Elə buna görə də Azərbaycan düzgün addım ataraq Aİ mülki missiyasının öz ərazisinə göndərilməsinə razılıq verməyib. Çünki ölkəmiz əvvəldən bu missiyanın nəyə xidmət edəcəyi haqqında dəqiq məlumata sahib idi. Heç kimə sirr deyil ki, bu kəşfiyyat diversiya missiyası Cənubi Qafqazda birbaşa hərbi geosiyasi maraqlara xidmət edir. Bu missiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə qətiyyən əlaqəsi yoxdur. Missiya Cənubi Qafqaza ona görə göndərilib ki, regiondakı reallıqlara yaxından bələd olsun və Avropanın gələcəkdə ata biləcəyi geosiyasi, hətta hərbi xarakterli addımları müəyyənləşdirsin".

Elşad Mirbəşiroğlu qeyd edib ki, Ermənistan Avropanın regionla bağlı bütün sirləri öyrənməsinə şərait yaradır. Bununla da dolayısı ilə ABŞ üçün yol açır. Nəzərə almaq lazımdır ki, Avropanın üzərində ABŞ adlı bir çətir var. Deməli, Ermənistanın təxribatlarının başında birbaşa ABŞ dayanır. İrəvan bir sıra qüvvələrə regiona hətta hərbi müdaxilə etmələri üçün imkan verir. Avropa İttifaqının mülki adlandırdığı missiyanın tərkibində Fransanın və Almaniyanın xüsusi xidmət orqanlarının təmsilçilərinin mövcud olması bunu təsdiqləyir. Bu fakt bir çox qaranlıq məqama işıq salır.

Müsahibimizin sözlərinə görə, burada sual yaranır - Ermənistan regiona müdaxilə etməsi üçün Qərbə lazım olan şəraiti yaradırsa, bəs özünün gözləntisi nədən ibarətdir? Bunun cavabı aydındır: "Ermənistanın gözləntisi Qərbdən Azərbaycanla bağlı çirkin niyyətlərini reallaşdırmaq üçün dəstək almaqdan ibarətdir. Görünən odur ki, Qərb də erməniləri ölkəmizə qarşı planlaşdırdıqları bütün cinayətlərdə dəstəkləməyə hazırdır.

Deputat vurğulayıb ki, bu gün erməni snayperi Azərbaycan əsgərini yaralayırsa, Ermənistan rəsmi şəkildə Azərbaycana olan ərazi iddialarından əl çəkmirsə, deməli, onların çirkin planları hələ də yekunlaşmayıb: "Ermənistan saxta sülh ritorikası çətiri altında ölkəmizə qarşı məkrli planlarını işləyib hazırlayıb, indi isə həyata keçirməyə cəhd göstərir. Şahidi olduq ki, Qərb də bu məsələdə Ermənistana kömək göstərməyə hər an hazırdır. Bir müddət əvvəl Prezident İlham Əliyev Azərbaycan mediasına müsahibəsində son 4-5 ayın ən sabit dövr olduğunu bildirmişdi. Ermənistanın bu sabitliyi növbəti dəfə təkbaşına pozması isə inandırıcı deyil. Baş verənlərə görə məsuliyyəti Ermənistan rəhbərliyi ilə yanaşı, Aİ missiyası, hərbçiləri, instruktorları və binoklçuları daşıyırlar".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*